


# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 152 (24.039)

13 avqust 2022-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 12-də Qobustan rayonunda “Diri Baba” türbəsində turizm infrastrukturunun yaradılması ilə bağlı aparılan yenidənqurma işləri ilə tanış olublar. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva həmin gün İsmayıllı rayonunda “Basqal Resort & Spa” otelinin açılışında iştirak ediblər.

***

Avqustun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsmayıllı rayonunda “Basqal” Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində aparılan və icrası nəzərdə tutulan tikinti-bərpa işləri ilə tanış olublar. Prezident İlham Əliyev İsmayıllı rayonunun Basqal qəsəbəsində Azərbaycan Televiziyasına müsahibə verib.

***

Avqustun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ulu öndər Heydər Əliyevin Ağsu şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edib. Dövlətimizin başçısı abidənin önünə gül dəstəsi qoyub. Prezident İlham Əliyev həmin gün Ağsu şəhərindəki Bayraq meydanında Gənc Sənətkarlar Mərkəzinin və Dövlət Rəmzləri Muzeyinin açılışında iştirak edib. Dövlətimizin başçısı Ağsu rayonunda “Ağsu Aqropark” Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyəti ilə tanış olub.



*Strateji məhsul olan taxılçılığın inkişafı iqtisadi siyasətin prioritetidir*

Naxçıvan Muxtar Respublikası kifayət qədər əlverişli təbii-coğrafi şəraitə, məhsuldar torpaqlara malik olmasına baxmayaraq, müstəqilliyin ilk illərində Azərbaycanda siyasi hakimiyyətdə olmuş qüvvələrin ümummilli mənafeyə, dövlətçilik maraqlarına zidd mövqeyi, siyasi səriştəsizliyi nəticəsində muxtar diyarımız ciddi iqtisadi böhranla üz-üzə qalmalı olmuş, qonşu dövlətlərdən asılı vəziyyətə düşmüş, ərzaq qıtlığı ilə sınağa çəkilmişdi. Ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi həyata keçirdiyi qətiyyətli tədbirlər, yenidən siyasi rəhbərliyə gəlişindən sonra reallaşdırdığı uzaqgörən iqtisadi siyasətin bu problemlərin köklü həllinə rəvac vermişdi. Müstəqilliyin sonrakı mərhələsində muxtar respublikada ulu öndərin davamlı inkişaf və tərəqqiyə hesablanmış müdrik siyasətinə arxalanan iqtisadi strategiya həyata keçirilmiş, muxtar respublikamız iqtisadi tənəzzüldən tərəqqi yoluna qədəm qoymuş, real inkişaf göstəriciləri əldə edilmişdir. Bütün bunların əsasında isə mövcud çətinliklərin öhdəsindən gəlməyə, istənilən xarüqəni yaratmağa qadir olan vətənpərvərlik əzmi dayanır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev muxtar respublikanın misligörünməmiş inkişafını belə səciyyələndirmişdir: ***“Burada hər bir sahədə gözəl inkişaf vardır... Hər tərəf göz oxşayır, hər tərəfdə böyük zövqlə binalar tikilir. Bütün bu işlər onu göstərir ki, bu işləri görən insanlar doğma xalqına, doğma diyarına qəlbən bağlıdırlar. Əsas məsələ Vətən sevgisidir. İqtisadi imkanlar böyük də ola bilər, o qədər böyük olmaya da bilər. Amma əgər Vətən sevgisi varsa, məhdud iqtisadi imkanlarla da çox iş görmək olar. Mən çox şadam ki, naxçıvanlıların Vətənə bağlılığı həmişə olduğu kimi, çox yüksək səviyyədədir”.***

Muxtar respublikada aparılan uğurlu aqrar siyasət ərzaq təhlükəsizliyi sahəsində də öz bəhrəsini vermişdir. Məhsul istehsalçılarına subsidiyaların, mineral gübrələrin, kimyəvi dərmanların, güzəştli kreditlərin verilməsi, müasir meliorasiya və irriqasiya tədbirlərinin həyata keçirilməsi, lizinq xidmətlərinin genişləndirilməsi, meyvə-tərəvəz emalı müəssisələrinin, istixana komplekslərinin yaradılması, taxıl və soyuducu anbarların həcminin artırılması nəticəsində əhalinin kənd təsərrüfatı məhsullarına olan tələbatı tamamilə, taxıla olan tələbat isə, əsasən, yerli istehsal hesabına ödənilir. Ərzaq təhlükəsizliyinin təmin olunmasında taxılçılığın müstəsna əhəmiyyəti nəzərə alınaraq əkinçiliyin vacib sahəsi olan dənli bitkilərin, xüsusilə taxıl və qarğıdalının istehsal həcminin intensiv metodlarla artırılmasına mühüm əhəmiyyət verilir. Taxıla olan tələbatın yerli istehsal hesabına ödənilməsi diqqətdə saxlanılır, bu sahəyə dövlət dəstəyi ilbəil artırılır. Hazırda muxtar respublikada ümumi tutumu 27 min ton olan taxıl ehtiyatı anbarı, 14 taxıl emalı müəssisəsi və 6 su dəyirmanı fəaliyyət göstərir. Daxili bazarın qorunması, texnika və toxum təminatı, mütərəqqi suvarma şəbəkələrinin qurulması, subsidiyaların və gübrələrin verilməsi ilə yanaşı, buğda və arpanın sərfəli qiymətlərlə alınması da taxıl istehsalının artırılmasına imkan vermişdir. Belə ki, bu il taxılın kiloqramı 60, arpanın kiloqramı isə 48 qəpikdən qəbul olunur.

Məlumat üçün bildirək ki, ötən ilin payızında və cari ilin yazında muxtar respublikada 33466 hektar sahədə taxıl əkilmişdi. Bu, əvvəlki illə müqayisədə 745 hektar çoxdur. Mövsüm boyu əkin sahələrinə göstərilən aqrotexniki qulluq öz bəhrələrini verib. Belə ki, sahələrdən hektarın orta məhsuldarlığı 32,1 sentner təşkil etməklə 107 min 418 ton yüksəkkeyfiyyətli taxıl götürülüb. Müvafiq olaraq bu rəqəmlər ötən il 31,6 sentner və 103 min 372 ton olub. Heç şübhəsiz ki, qazanılan uğurlarda muxtar respublikada mühüm strateji ərzaq məhsulu olan taxılçılığın inkişafına göstərilən dövlət qayğısı, mövcud nöqsanların aradan qaldırılması istiqamətində görülən ardıcıl tədbirlər də müstəsna rol oynayır. İyulun 7-də “Araz” Elm-İstehsalat Birliyinin təcrübə təsərrüfatında Naxçıvan Muxtar Respublikasında taxılçılığın inkişafı və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirə də belə tədbirlərdən idi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov müşavirədə çıxış edərək demişdir: ***“Naxçıvan Muxtar Respublikasında ərzaq təhlükəsizliyi tədbirləri sırasında taxıl istehsalı xüsusi yer tutur. Taxıla olan tələbatın yerli istehsal hesabına ödənilməsi diqqətdə saxlanılır, bu sahəyə dövlət dəstəyi ilbəil artırılır. Hazırda muxtar respublikada ümumi tutumu 27 min ton olan taxıl ehtiyat anbarı, 14 taxıl emalı müəssisəsi və 6 su dəyirmanı fəaliyyət göstərir. Həmçinin daxili bazarın qorunması, texnika və toxum təminatı, mütərəqqi suvarma şəbəkələrinin qurulması, subsidiyaların və gübrələrin verilməsi taxılçılıqla məşğul olanlar üçün geniş imkanlar açmışdır. Taxıl istehsalının artırılmasının digər bir səbəbi də buğda və arpanın sərfəli qiymətlərlə alınmasıdır. Naxçıvan Muxtar Respublikasının torpaq balansına əsasən kənd təsərrüfatına yararlı torpaqların 36 faizi, yəni 64 min hektardan çoxu əkin altındadır ki, bunun da 82 faizi – 52 min hektardan çoxu suvarılan sahələrdir. Muxtar respublikanın əkin strukturunda taxıl sahələri ümumi əkilən ərazilərin 52 faizini təşkil edir. Bu da onu deməyə əsas verir ki, taxılçılığın inkişafına əkin sahələrinin genişləndirilməsi ilə deyil, məhsuldarlığın artırılması yolu ilə nail olmaq lazımdır”.***

Taxılçılıqda əsas hədəfin hektardan məhsuldarlığın yüksəldilməsi olduğunu vurğulayan muxtar respublika rəhbəri ayrı-ayrı rayonlar üzrə müqayisəli təhlillər apararaq eyni torpaq və iqlim xüsusiyyətlərinə malik bəzi ərazilərdə əkin aparılmasına baxmayaraq, istehsal olunmuş taxılın həcminin sahənin potensial imkanlarından aşağı olduğunu diqqətə çatdırmışdır.

***“Qarşıda duran əsas vəzifə muxtar respublikada strateji məhsul olan taxıl istehsalını artırmaqdır”***, – deyən Ali Məclisin Sədri taxılçılığın inkişafının bundan sonra da aid qurumlar tərəfindən diqqətdə saxlanılması, məhsuldarlığın artırılması ilə bağlı aidiyyəti üzrə tapşırıqlar vermişdir. Qeyd olunmuşdur ki, “Araz” Elm-İstehsalat Birliyinin yardımçı təcrübə təsərrüfatlarında və Naxçıvan Toxumçuluq Mərkəzində məhsuldar toxum sortları yetişdirilməli, torpaq mülkiyyətçiləri sertifikatlaşdırılmış toxumlarla təmin olunmalıdırlar. Muxtar respublika üzrə dəmyə əkin sahələrinin xəritəsi hazırlanmalı, tam şəkildə əkin aparılmalıdır. Muxtar respublika rəhbəri taxıl əkini sahələrinə suyun aqrotexniki normalarda verilməsinin təmin edilməsi, şoranlaşmaya qarşı tədbirlər görülməsi, torpaqların münbitliyinin artırılması, taxıl emalı müəssisələrində və satış mərkəzlərində texnoloji proseslərə, məhsulun saxlanılma şəraitinə nəzarət edilməsi kimi qarşıya mühüm vəzifələr qoymuşdur.

Sonra Ali Məclisin Sədri muxtar respublika üzrə taxıl biçininin gedişi ilə maraqlanmış, “Araz” Elm-İstehsalat Birliyinin əməkdaşlarına təşəkkür etmiş, müşavirənin şəhər və rayonlar üzrə də keçirilməsi barədə tapşırıqlar vermişdir. Verilən tapşırıqlara uyğun olaraq muxtar respublikanın şəhər və rayonlarında keçirilən müşavirələr, payızlıq taxıl əkinlərinə hazırlıq işləri zamanı aqrotexniki qaydalara ciddi əməl olunmasına səy göstərilməsi bir daha təsdiq edir ki, bəhs olunan müşavirədə taxılın istehsalı və emalı proseslərinə nəzarətin gücləndirilməsi məqsədilə irəli sürülən vəzifələr muxtar respublikada taxılçılığın gələcək inkişafının başlıca hədəfləridir.

*İcmal*

## Müstəqillik, milli ləyaqət, inkişaf, tərəqqi yolu...
## Naxçıvan bu yolda inam, əzmkarlıq və qətiyyətlə irəliləyir

### *Növbəti yarım ilin inkişaf hədəflərinin müəyyənləşdirilməsi ilə səciyyələnən ötən ayın ictimai-siyasi təhlili belə deməyə əsas verir*



*Sosial-iqtisadi inkişaf dinamikası cari ilin ilk yarım ilində də qorunub saxlanılmış, müxtəlif istiqamətlər üzrə nəzərəçarpan inkişaf göstəriciləri qeydə alınmışdır*

Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu sosial-iqtisadi inkişaf strategiyasının ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, 2022-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasında əsas inkişaf göstəriciləri üzrə müsbət dinamika qorunub saxlanılmış, sosial-iqtisadi islahatlar və tikinti-quraşdırma işləri davam etdirilmişdir. Hesabat dövründə muxtar respublikada ərzaq, enerji və müdafiə təhlükəsizliyi daha da möhkəmləndirilmiş, inkişafın əsas göstəricisi hesab olunan əhali rifahı yüksəldilmiş, yeni iş yerləri açılmış, özünüməşğulluq proqramlarının əhatə dairəsi genişləndirilmişdir. 2022-ci ilin birinci yarısında muxtar respublikada ümumi daxili məhsulun həcmi 1 milyard 363 milyon manatdan çox olmuşdur ki, bunun da 86 faizi özəl bölmənin payına düşmüşdür.

Ötən dövrdə muxtar respublikada sahibkarlıq fəaliyyətinin təşviqi məqsədilə 24 milyon manatdan çox kredit verilmiş, dövlət dəstəyi hesabına 68 layihə üzrə yeni istehsal və xidmət sahəsi yaradılmışdır. Tikinti-quruculuq işləri də geniş vüsət almış, 113 obyekt tikilərək və ya yenidən qurularaq istifadəyə verilmiş, 197 obyektin tikintisi və yenidən qurulması davam etdirilmişdir.

Aqrar sahədə sistemli şəkildə həyata keçirilən kompleks tədbirlər kənd təsərrüfatının davamlı və dinamik inkişafını təmin etmişdir. Cari ilin məhsulu üçün ötən ilin payızında və

*Ardı 2-ci səhifədə*

bu ilin yazında muxtar respublika üzrə 33 min 466 hektar sahədə taxıl əkini aparılmışdır. 2022-ci ilin ötən dövründə diri çəkidə 13 min 978 ton ət, 51 min 907 ton süd, 881 ton yun, 64 milyon 439 min yumurta istehsal edilmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 6,9 faiz, süd istehsalı 1,5 faiz, yun istehsalı 1,2 faiz, yumurta istehsalı 2,3 faiz artmışdır. 2022-ci ilin ötən dövründə kənd təsərrüfatının ümumi məhsulu 152 milyon 756 min manat təşkil etmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3,7 faiz çoxdur.

Muxtar respublikada çoxşaxəli iqtisadiyyatın formalaşdırılması, sənaye müəssisələrinin yaradılması, mövcud müəssisələrin fəaliyyətinin genişləndirilməsi 2022-ci ilin birinci yarım ilində də davam etdirilmişdir. Ali Məclis Sədrinin müvafiq Sərəncamına əsasən "Naxçıvan Xalça və İplik İstehsalı Müəssisəsi" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması istiqamətində işlərə başlanılmış, yun iplik istehsalı sahəsinin yaradılması məqsədilə layihə hazırlanmışdır. Yaradılacaq yeni Duz İstehsalı Müəssisəsi isə geniş istehsal imkanları ilə "Sənaye ili"nə mühüm töhfə olacaqdır. Bu ilin ilk yarısında Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına sənayeyönümlü 15 layihəyə 4 milyon 903 min manat kredit verilmişdir. Sahibkarlığın İnkişafı Fondu tərəfindən kənd təsərrüfatı yönümlü layihələrə 1 milyon 36 min manat güzəştli kredit verilmişdir. Bununla yanaşı, kənd təsərrüfatının müxtəlif sahələri üzrə fəaliyyət göstərən ailə təsərrüfatlarına Sahibkarlığın İnkişafı Fondu tərəfindən cari ilin ötən dövrü ərzində 766 min manat dövlət maliyyə dəstəyi də göstərilmişdir.

Son illərdə əhalinin məşğulluğunun təmin olunması istiqamətində görülən işlərin miqyası genişlənmişdir. Bu ilin ötən dövründə muxtar respublikada 1313 nəfər iqtisadiyyatın müxtəlif sahələrində işlə təmin olunmuşdur ki, bunlardan da 215-ni əmək yarmarkalarında işə göndərilənlər təşkil etmişdir. Özünüməşğulluq proqramının tətbiqinə başlanılmasından bu günədək 5126 nəfər ailə üzvü olan 1107 ailənin özünüməşğulluğu təmin edilmişdir. Cari ildə isə 862 nəfər ailə üzvü olan 182 ailə proqrama cəlb edilmişdir. Muxtar respublikada 15-i 2022-ci ilin birinci yarısında olmaqla, 43 şəhid ailəsi və sağlamlıq imkanı məhdud müharibə iştirakçısı mənzillə, 16-sı 2022-ci ilin birinci yarısında olmaqla, 44 müharibə iştirakçısı avtomobillə təmin olunmuş, 4-ü 2022-ci ilin birinci yarısında olmaqla, 21 şəhid ailəsi və müharibə iştirakçısının kredit borcu bağlanmış, 10-u 2022-ci ilin birinci yarısında olmaqla, 42 şəhid ailəsi və müharibə iştirakçısının mənzil-məişət şəraiti yaxşılaşdırılmışdır. Həmçinin bu günədək fondun vəsaitləri hesabına müvafiq kateqoriyadan olan 24 şəxsin muxtar respublika xaricində müalicə və müayinəsinə köməklik göstərilmiş, 1 nəfərin təhsil haqqı xərci ödənilmişdir.

Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin gəlirləri 2021-ci ildə 128 milyon 400 min manat plana qarşı 145 milyon 38 min manat icra edilmiş, büdcəyə 16 milyon 638 min manat artıq vəsait mədaxil edilmişdir. Əsaslı vəsait qoyuluşu xərclərinin böyük hissəsi muxtar respublikada quruculuq və abadlaşdırma işlərinin aparılmasına, yerli idarəetmə orqanlarının, təhsil, səhiyyə, mədəniyyət müəssisələrinin tikintisinə, şəhər və kənddaxili avtomobil yollarının yenidən qurulmasına, eyni zamanda infrastrukturun yenilənməsi layihələrinin maliyyələşdirilməsinə yönəldilmişdir. Muxtar diyarımızın çoxcəhətli sosial-iqtisadi inkişafını təsdiqləyən bu statistik göstəricilər iyulun 16-da keçirilən altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasındakı məruzələrdə öz əksini tapmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2022-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları barədə məruzə etmişdir.

Ali Məclis Sədrinin sessiyadakı məruzəsində yarım ilin yekunlarına nəzər salınmış, inkişaf göstəriciləri müqayisəli şəkildə təhlil edilmişdir. Muxtar respublika rəhbəri Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının əsas istiqamətləri üzrə islahatların 2022-ci ilin ikinci yarısında da davam etdirilməsi, makroiqtisadi sabitliyin qorunub saxlanılması ilə bağlı aidiyyəti üzrə bir sıra tapşırıqlar vermişdir. Qeyd olunmuşdur ki, dövlət büdcəsinin icrasına və büdcə vəsaitlərindən qənaətlə istifadəyə nəzarəti gücləndirilməli, təhlillər aparılmalı, növbəti ilin büdcə proqnozları hazırlanmalıdır.

Muxtar respublikada tələbatın yerli istehsal hesabına ödənilməsi üçün əsas tələbat malları üzrə yerli istehsala üstünlük verilməli, yeni sahibkarlıq müəssisələrinin yaradılması dəstəklənməli, Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi ilə birlikdə kredit təşkilatları tərəfindən sahibkarlıq müəssisələrinin kreditləşdirilməsinə və həmin kreditlərdən təyinatı üzrə səmərəli istifadəyə nəzarət olunmalıdır. Muxtar respublikada istehsal olunan məhsulların daxili bazarda mövqeyinin möhkəmləndirilməsi və rəqabət qabiliyyətinin artırılması istiqamətində işlər davam etdirilməli, daxili tələbat və ixrac imkanları, o cümlədən ixrac bazarlarında baş verən tendensiyalar düzgün təhlil olunmalıdır. Vahid maliyyə və büdcə siyasəti çərçivəsində vergilərin, məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqlarının vaxtında və tam yığılması təmin edilməli, nağdsız ödəniş təşviq olunmalıdır. Ali Məclisin Sədri muxtar respublikada sənayeləşmə prosesinin daha da sürətləndirilməsi və sənayenin innovasiyalar əsasında inkişafının dəstəklənməsi məqsədilə 2022-ci ilin "Sənaye ili" elan edildiyini vurğulayaraq sənaye müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsi və yeni sənaye müəssisələrinin yaradılması, rentabelli sahələrə investisiyaların cəlbi istiqamətində iş aparılması ilə bağlı da tapşırıqlar vermişdir. Qeyd olunmuşdur ki, istehlak bazarında məhsulların və xidmətlərin keyfiyyətinə, bütövlükdə, qida təhlükəsizliyi tədbirlərinə dövlət nəzarəti gücləndirilməli, ailə təsərrüfatları məhsullarının emalı, qablaşdırılması və ixracına dəstək verilməlidir.

Ərzaq təhlükəsizliyini təmin etmək, emal müəssisələrinin xammala olan tələbatını ödəmək məqsədilə əkin strukturuna daxil olan torpaqların əkilməsini diqqətdə saxlamalı, bununla bağlı müvafiq tədbirlər görməli, eyni zamanda dəmyə torpaqlarda taxıl əkini təşviq olunmalıdır. Torpaq sahələrindən kənar məqsədlər üçün istifadənin qarşısını almalı, əhali məlumatlandırılmalı, xəbərdarlıqlardan nəticə çıxarmayanlar barəsində qanunvericiliyə uyğun müvafiq tədbirlər görülməlidir. Məruzədə su təminatının yaxşılaşdırılması, ekoloji tarazlığın qorunması tədbirləri sırasında ətraf mühitdən və təbii sərvətlərdən səmərəli istifadə, muxtar respublikada aparılan abadlıq-quruculuq işləri, həyata keçirilən islahatlar nəticəsində yaradılan müasir infrastrukturun qorunub saxlanılması, yerli özünüidarəetmə orqanlarının – bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi, görülən işlərin nəticəsində yaradılan sabit epizootik vəziyyətin bundan sonra da nəzarətdə saxlanılması ilə bağlı tapşırıqlar da diqqətə çatdırılmışdır. Ali Məclisin Sədri muxtar respublikanın ümumtəhsil məktəblərində, məktəbəqədər və məktəbdənkənar təhsil müəssisələrində tədrisin və təlim-tərbiyənin təşkili, mədəniyyət müəssisələrində kadr işi, konsert və musiqi təhsili müəssisələrinin fəaliyyəti istiqamətində yol verilən nöqsanların aradan qaldırılması, əhalinin məşğulluğu və sağlamlıq imkanları məhdud uşaqların təhsili ilə bağlı Dövlət proqramlarından irəli gələn vəzifələrin diqqətdə saxlanılması, özünüməşğulluq tədbirlərinin əhatə dairəsi daha da genişləndirilməsi, tibb xidmətinin keyfiyyətinin, eləcə də həkim və tibb işçilərinin peşəkarlığının artırılması, muxtar respublikada epidemioloji vəziyyətlə bağlı tədbirlərin davam etdirilməsi, sanitariya-gigiyena normalarına əməl olunması ilə bağlı da mühüm tapşırıqlar vermişdir. Qeyd olunmuşdur ki, gənclərin idmana marağının artırılması üçün layihələr hazırlanmalı, ölkə və beynəlxalq səviyyəli idman yarışlarında muxtar respublikadan olan idmançıların iştirakı təmin edilməli, idman federasiyaları ilə qarşılıqlı fəaliyyət artırılmalıdır. Fermer və torpaq mülkiyyətçilərini tələbata uyğun kənd təsərrüfatı texnikaları, avadanlıqlar və gübrələrlə təmin etməli, lizinq xidmətinin əhatə dairəsi genişləndirilməlidir.

Muxtar respublika rəhbərinin məruzəsində əmək pensiyalarının düzgün hesablanması və təyinatı ilə bağlı işlərin davam etdirilməsi, sosial islahatların mühüm tərkib hissəsi olan gənc ailələrin mənzil təminatında, muxtar respublikanın malik olduğu geniş turizm potensialından istifadə və bu sahədə aparılan təbliğat işində yol verilən nöqsanların aradan qaldırılması ilə bağlı tapşırıqlar da öz əksini tapmışdır. Ali Məclisin Sədri mövcud qanunvericiliyə uyğun olaraq dövlət orqanlarında işə qəbul, attestasiya və sertifikasiya ilə bağlı, sığorta fəaliyyəti sahəsində innovativ xidmətlərin və könüllü sığortanın əhatə dairəsinin genişləndirilməsi, aqrar sığortaya marağın artırılması, tibbi sığortanın tətbiqi ilə də bağlı tapşırıqlar vermişdir. Qeyd olunmuşdur ki, sərnişin və yükdaşıma sahəsində, yol tikintisi işlərində keyfiyyətə diqqət artırılmalı, elektroenergetika infrastrukturunun müasirləşdirilməsinə, təbii qaz təminatında keyfiyyətin yüksəldilməsinə nəzarət olunmalı, əhaliyə keyfiyyətli rabitə və internet xidməti göstərilməsi istiqamətində işlər daha da təkmilləşdirilməlidir. Muxtar respublikanın rayonlarının tarixi və Naxçıvan etnoqrafiyası ilə bağlı kitabların nəşri ilin sonuna qədər başa çatdırılmalı, "Elm festivalı"na hazırlıq görülməli, ali təhsil müəssisələri tərəfindən yeni tədris ilinə hazırlıq görülməli, tələbə qəbulunun nəticələri təhlil olunaraq növbəti ilin qəbul planı barədə təkliflər hazırlanmalı, gənclərin düzgün istiqamətləndirilməsi ilə əlaqədar müvafiq layihələr həyata keçirilməli, könüllülük fəaliyyəti təşviq olunmalıdır. Düzgün statistik təhlillərin aparılmasının inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində əsas amil olması diqqətdə saxlanılmalıdır.

Muxtar respublika rəhbəri sessiyadakı məruzəsində hüquq-mühafizə orqanlarına profilaktika tədbirlərini davam etdirmək, nizam-intizamı daha da möhkəmləndirilmək, ictimai asayişin və sabitliyin qorunmasına diqqəti artırmaqla bağlı mühüm tapşırıqlar vermiş, qeyd etmişdir ki, ordu, birləşmə və hərbi hissələr Naxçıvan Qarnizonu üzrə təsdiq edilmiş Uzlaşma Planında nəzərdə tutulan tədbirləri ardıcıl şəkildə icra etməli, şəxsi heyətin döyüş hazırlığının artırılması və xidmətin təşkili sahəsində tədbirlər görülməlidir. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti çağırışçıların müddətli həqiqi hərbi xidmətə çağırışını təşkil etməli, hərbi uçotun dəqiq və düzgün aparılmasına nəzarət olunmalıdır. Muxtar respublikanın yaradıcılıq birlikləri fəaliyyətlərini ümumi inkişafa uyğun qurmalı, müxtəlif müsabiqə və tədbirlər keçirilməli, kütləvi informasiya vasitələri ilə əlaqələr genişləndirilməlidir. Kütləvi informasiya vasitələri fəaliyyətlərində keyfiyyətə daha çox diqqət etməlidir.

*İyul ayının iqtisadi-siyasi mənzərəsi ilin ilk yarım ilinə uğurlu yekun vurmaqla, növbəti yarım ilə dinamik inkişaf tempinin qorunub saxlanılmasına xidmət edəcək başlıca hədəflərin müəyyənləşdirilməklə xarakterizə oluna bilər. Belə ki, sosial-iqtisadi inkişaf dinamikası cari ilin ilk yarım ilində də davam etdirilmiş, müxtəlif istiqamətlər üzrə nəzərəçarpan inkişaf göstəriciləri qeydə alınmışdır. Qazanılan çoxsaylı uğurların əsasında isə ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında ümummilli liderin yoluna sədaqət, qarşıya qoyulan vəzifələr və hədəflərin düzgün müəyyənləşdirilərək düşünülmüş və planlı şəkildə həyata keçirilməsi dayanır. Prezident cənab İlham Əliyevin də dediyi kimi:* ***"Biz inamla irəliyə gedirik. İrəliyə getmək üçün bizim yolumuz açıqdır. Bu yolun təməlini ulu öndər qoymuşdur. Biz bu siyasətə sadiqik. Bizim yolumuz müstəqillik, milli ləyaqət, inkişaf, tərəqqi yoludur".***

**✍ Mehriban SULTAN**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

# Beynəlxalq Gənclər Günü qeyd olunub

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Gənclər Fondu və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Gənclər Birliyinin təşkilatçılığı ilə 12 avqust – Beynəlxalq Gənclər Gününə həsr olunan tədbir keçirilib.*





Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı bildirib ki, ölkəmizdə və eləcə də muxtar respublikamızda uğurla həyata keçirilən dövlət gənclər siyasətinin, bu sahədə görülən məqsədyönlü işlərin, gənclərə göstərilən diqqət və qayğının nəticəsidir ki, gənc nəslin nümayəndələri cəmiyyətin inkişafında fəal sosial təbəqəyə çevrilib. Bugünkü gənclik daha dinamik, müasir, bilikli və dünyagörüşlüdür. İstər fiziki, istərsə də zehni cəhətdən sağlam gənclik modeli formalaşdırılıb. Qürurla deyə bilərik ki, müasir gənclərimiz ümummilli lider Heydər Əliyevdən bizə miras qalan Azərbaycançılıq ideologiyası ətrafında sıx birləşərək fəaliyyətini məhz ali prinsiplər üzərində qururlar. Biz bir daha şahid olduq ki, gənclərimiz istər döyüş meydanında, istərsə də idman arenalarında və sosial şəbəkələrdə düşmənin layiqli cavabını verirlər.

Nazir vurğulayıb ki, Beynəlxalq Gənclər Günü muxtar respublikamızda ənənəvi və geniş şəkildə qeyd edilir. Bu münasibətlə müxtəlif tədbirlər təşkil olunur, muxtar respublikanın ictimai-siyasi həyatında və idmanda uğur qazanan gənclərin fəaliyyəti dövlətimiz tərəfindən mükafatlandırılır. Məqsəd onları daha da həvəsləndirmək və motivasiya etməkdir. Əminliklə demək olar ki, gənclərimiz bundan sonrakı dövrdə də bilik, bacarıq və istedadları ilə hər zaman fərqlənəcək, ölkəmizin inkişafına öz töhfələrini verəcəklər.

Çıxışının sonunda Ramil Hacı muxtar respublika gəncləri üçün yaradılan şəraitə və göstərilən qayğıya görə gənclər adından Ali Məclisin Sədrinə minnətdarlığını bildirib.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev gəncləri təbrik edib, onlara göstərilən yüksək etimadı layiqincə doğruldacaqlarına əminliyini bildirib. Qeyd edilib ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu gənclər siyasəti bu gün Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə böyük uğurlar qazanır. Ötən illər ərzində ölkəmiz böyük inkişaf yolu keçib, güclü dövlətə çevrilib. Ən mühüm hadisə isə 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımızın işğaldan azad olunması, ölkəmizin ərazi bütövlüyünün təmin edilməsidir.

Vurğulanıb ki, bu gün dövlət gənclər siyasətinin muxtar respublikada Ali Məclisin Sədri tərəfindən məqsədyönlü şəkildə davam və inkişaf etdirilməsi gənclərin qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsində fəallıqlarını xeyli artırıb. Son illər gənclərin muxtar respublikanın ictimai-siyasi, iqtisadi-mədəni həyatında fəal iştirakı, sosial problemlərinin həll edilməsi, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq Dövlət proqramlarının səmərəli həyata keçirilməsi, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin irəli çəkilməsi və xidmətlərinin qiymətləndirilməsi bu istiqamətdə atılan mühüm addımlardandır.

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Gənclər Birliyinin sədri Arzu Qasımov çıxış edərək vurğulayıb ki, dövlətimiz tərəfindən gənclərə göstərilən diqqət və qayğı nəticəsində bu gün onlar muxtar respublikanın ictimai-siyasi, iqtisadi-mədəni həyatında fəal iştirak edir, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə irəli çəkilir, xidmətləri qiymətləndirilir. Eyni zamanda gənclərin milli ruhda tərbiyəsi diqqət mərkəzində saxlanılır, gənclərin aparıcı qüvvəyə çevrilməsi və onların sosial-iqtisadi problemlərinin həllinin təmin edilməsi məqsədilə bir sıra fərman və sərəncamlar imzalanır. Ali Məclisin Sədri gənclərin innovativ düşüncəli və bilikli yetişməsinə önəm verdiyi kimi, onların ictimai proseslərdə fəal iştirakına da diqqət ayırır. Bütün bunlar isə elmli, savadlı, yüksəkixtisaslı gənc kadrların yetişdirilməsinə hesablanmış addımlardır.

Çıxışlardan sonra tədbirin bədii hissəsinə start verilib. Gənc musiqiçilərin ifasında bir-birindən gözəl musiqi nömrələri, Beynəlxalq Gənclər Günü ilə əlaqədar gənclər tərəfindən hazırlanan flashmob və videoarx qonaqlar tərəfindən alqışlarla qarşılanıb.

Ardınca muxtar respublikanın ictimai həyatında və yaradıcılıq sahəsində fərqlənən, eyni zamanda 12 avqust – Beynəlxalq Gənclər Günü ilə əlaqədar keçirilən tədbirlərin qalibləri mükafatlandırılıb, Vətən müharibəsi iştirakçılarına təşəkkürnamələr təqdim edilib.

Tədbir konsert proqramı ilə davam edib.

**✍ Ceyhun MƏMMƏDOV**



Təhsil millətin gələcəyidir

## Bir məktəb üçün ən böyük uğur və mükafat şagirdlərinin nurlu sabahı, işıqlı gələcəyidir

### *Şərur şəhər 2 nömrəli tam orta məktəb tədris ilini böyük nailiyyətlərlə başa vurub*

*Son vaxtlarda elm və təhsildən söhbət düşəndə bir neçə müddət əvvəl muxtar respublikamıza səfər etmiş Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, ulu öndərə həsr etdiyi "Sən elə bir zirvəsən" şeiri ilə yaddaşlarda qalan şair Baba Vəziroğlunun diyarımızda mövcud olan təhsil siyasəti barədə söylədiyi səmimi fikirləri xatırlayıram: "Savad, yüksək intellekt sanki naxçıvanlıların genində var. Bunu bütün naxçıvanlı tanışlarımın timsalında görmüşəm..." Bu gün muxtar diyarımızda hər bir istiqamətdə olan inkişaf və tərəqqi, günü-gündən yenilənən, müasirləşən ədəbi mühit, iqtisadiyyatın, tarixin, bir sözlə, bu və ya digər sahələrin fəaliyyətinin günün tələbləri əsasında qurulması, təbii olaraq, yurdumuza səfər edən qonaqların da diqqətindən yayınmır. Muxtar respublika rəhbərinin xüsusi diqqət və qayğısı ilə əhatə olunmuş təhsil strategiyası prioritet istiqamətlərdən biri kimi hər il öz layiqli bəhrəsini verir. Qürur hissi ilə deyə bilərik ki, bu gün diyarımızın hansı səmtinə üz tutsaq, istifadəyə verilmiş yaraşıqlı məktəb binalarını, gənclərin vətənpərvər ruhda formalaşması, onların bilik və bacarıqlara yiyələnməsi üçün qurulmuş müasir infrastrukturu görəcəyik. Dövlətimizin təhsilə göstərdiyi bu diqqət, o cümlədən yaradılan hərtərəfli şərait öz müsbət nəticələrini, ötən tədris ilində əldə olunan müvəffəqiyyətlərlə bir daha təsdiq edir.*



Artıq oxucularımıza təqdim etdiyimiz bir neçə yazımızda 2021-2022-ci tədris ilini uğurla başa vurmuş, Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanlarında yüksək nəticə əldə etmiş və tələbə adı qazanmağın bir addımlığında dayanmış gənclərimizdən bəhs etmişik. Elə bu yazımızda da təhsilin keyfiyyətinə görə muxtar respublikamızda sayılıb-seçilən, müasir təhsil infrastrukturu ilə əhatə olunmuş, bu ilin müvəffəqiyyət göstəricilərinə görə lider səviyyədə olan Şərur şəhər 2 nömrəli tam orta məktəbdən söhbət açmaq istəyirik.

"Bir müəllim üçün ən böyük uğur və mükafat tələbələrinin nurlu sabahı, işıqlı gələcəyidir", – deyir məktəbin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi ***Sevil Hacıyeva***. Müsahibim respublikamızda mövcud olan təhsil siyasətindən söhbət açaraq qeyd edir ki, ölkəmizdə olduğu kimi, onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda da təhsilin inkişafına hərtərəfli diqqət və qayğı göstərilir, bu sahədə ardıcıl tədbirlər həyata keçirilir, təhsil müəssisələrinin maddi tədris bazası möhkəmləndirilir, infrastrukturu yenilənir. Məlumdur ki, ölkələrin və xalqların inkişafı elm və təhsildən əhəmiyyətli dərəcədə asılıdır. O ölkələr, o xalqlar irəli gedir ki, orada elm və təhsil daim inkişafdadır. Sevil müəllim deyir: – Uzun illərdir, qazandığım pedaqoji təcrübəmə söykənərək deyə bilərəm ki, Azərbaycan cəmiyyəti də elm və təhsilə qovuşaraq bu gün müasir səviyyəyə gəlib çıxmışdır. Hər zaman təhsil mövzusunda danışarkən ulu öndərin dəyərli fikirlərini xatırlayıram: ***"Xalqımızın tarixi taleyi elə imkan yaratmışdır ki, ötən yüzilliklə Azərbaycan höknə dünyadan sürətlə qopmuş, elm, mədəniyyət, təhsil, intibah yolunu tutmuşdur. Kütləvi surətdə savadlanmaq, elmə, mədəniyyətə, təhsilə can atmaq Azərbaycan xalqının mənəviyyatını da, həyat tərzini də, xarici görünüşünü də dəyişmiş, onu inkişaf edən dünyaya qovuşdurmuşdur"***. Bu gün böyük qürurla, əminliklə deyirik ki, diyarımızda əsası ulu öndər tərəfindən qoyulmuş müasir təhsil siyasəti öz layiqli bəhrələrini hər keçən gün daha parlaq şəkildə göstərir. Ötən əsrin 90-cı illərində, xatırlamaq belə istəmədiyimiz həmin dövrlərdə hər bir sahəyə hakim kəsilən böhran, çətinlik elm və təhsil yolunu da gənclərimizin üzünə bağlamışdı. Yararsız sinif otaqları, dərs vəsaitlərinin olmaması və bunun kimi saymağa, hətta xatırlamağa belə çətinlik çəkdiyimiz o dözülməz şərait artıq geridə qalıb. Çox şadıq ki, bu gözəlliklərdən 30 ildən artıqdır, müəllim işlədiyim Şərur şəhər 2 nömrəli tam orta məktəbin də payına düşüb.

Sevil müəllim sözlərinə belə davam edir: Məktəb muxtar respublikamızın müasir təhsil ocaqları sırasına 2017-ci il mart ayının 7-də qoşulub. Həmin il mənim üçün əlamətdar bir tarixdir, çünki həm məktəb binasında müasir infrastruktur qurulub, həm də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən "Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi" fəxri adına layiq görülmüşəm. Həmin təntənəli və yaddaqalan tədbirdə muxtar respublikamızın rəhbəri çıxış edərək demişdir: ***"Məktəblərdə təhsilli, dünyagörüşlü və peşə sahibi olacaq gənclərin hazırlanması ölkənin etibarlı gələcəyindən xəbər verir. Bu səbəbdən də ölkəmizdə məktəb işinə xüsusi diqqət yetirilir. Yaradılan müasir tədris şəraiti imkan verir ki, ümumtəhsil məktəblərini bitirən hər bir gənc ölkəmizlə yanaşı, həm də istənilən xarici ölkədə təhsil ala bilsin. Həmçinin ölkəmizdə qəbul olunmuş Dövlət proqramlarına uyğun olaraq yaxşı oxuyan gənclər seçilərək xarici ölkələrdə ali təhsil almağa göndərilir. Bu gənclər təhsillərini başa vurub qayıtdıqdan sonra ölkəmizə xidmət edirlər. Ona görə də gənclər hərtərəfli hazırlanmalı, dünya təhsil sisteminə inteqrasiya olunmalıdır"***.

Müsahibimiz sözlərinə görə, dördmərtəbəli və 1020 şagird yerlik məktəbimizdə müasir təhsilin tələblərinə cavab verəcək hər bir şərait yaradılıb. Təhsil ocağında 5-i elektron lövhəli olmaqla, 50 sinif, 2 müəllimlər, 2 şahmat, tibb otaqları, bufet, idman zalı, açıq idman qurğuları və mini-futbol meydançası, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, o cümlədən kitabxana müəllim və şagirdlərin ixtiyarına verilib. Burada 4 kompüter otağından istifadə edilir, ümumilikdə, 84 kompüter quraşdırılaraq sürətli internetə çıxışı təmin olunub. Müvafiq istiqamətlərdə təsis edilən yeni texnologiyalar məktəbimizdə distant tədrisin təbiqinə və interaktiv dərslərin keçilməsinə imkan verir. Laboratoriyalarımız isə ən müasir avadanlıqlarla və əyani vasitələrlə zənginləşdirilib. Bununla yanaşı, məktəbimizdə hər il, ümumilikdə, mindən artıq tələbə təhsil alır ki, onların da təlim-tərbiyəsi ilə 116 müəllim məşğul olur. 2021-2022-ci tədris ilinin məzunlarından 45-i ali təhsil üçün müvafiq balları toplayaraq tələbə adını qazanmağın, necə deyərlər, astanasında dayanıb. Onlardan 11 nəfəri 500-700, 4 nəfəri isə 600-700 bal intervalında nəticə göstərməklə həm müəllimlərə, həm də valideynlərinə başucalığı gətiriblər. Həmin məzunlardan Nərmin Vəliyeva 691 bal toplamaqla muxtar respublika birinciliyini qazanıb, müəllimlərinin və ailəsinin etimadını doğruldub.

Sevil Hacıyevanın sözlərinə görə, məktəbin müəllimləri yeni tədris üsullarından istifadəyə və dərslərini canlı şəkildə qurmağa səy göstərir, informasiya-kommunikasiya texnologiyalarının tətbiqini diqqətdə saxlayırlar:

– Ötən tədris ilində istifadəyə verilmiş STEAM kabinəsi şagirdlərimizin yeni təcrübi biliklərin qazanması istiqamətində mühüm rola malikdir. Təhsil ocağında məktəbdənkənar və sinifdənxaric tədbirlərin təşkilinə xüsusi diqqət yetirilir. Bütün bunlar şagirdlərin istedad və bacarıqlarının üzə çıxarılmasında, onların vətənpərvər vətəndaş kimi formalaşdırılmasında, şagirdlərin dövlətçiliyimizə, milli və mənəvi dəyərlərimizə sədaqət ruhunda tərbiyə olunmalarında mühüm əhəmiyyət kəsb edir. İnanıram ki, təhsil ocağımızın zəhmətsevər, peşəkar yaradıcı kollektivi bundan sonra da bu şərəfli yolda canla-başla çalışacaq, Vətənə, millətə layiqli şəxsiyyətlər yetişdirəcəkdir.





30 ildən artıqdır ki, məktəbdə pedaqoji fəaliyyət göstərən, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi ***Nazirə Rəhimova*** ilə də həmsöhbət oluruq. İllərin zəhmətinin, məsuliyyətinin layiqli nəticəsini şagirdlərinin qazandığı yüksək nailiyyətlərdə görən müsahibimiz deyir ki, valideynlə bərabər, bəlkə də, ondan daha çox uşağın hər cür şıltaqlığına, əziyyətinə dözmək, kədəri ilə kədərlənib, sevinci ilə sevinmək müəllimlərin üzərinə düşən böyük məsuliyyətdir. Müəllim əməyinin nəticəsində cəmiyyət formalaşır, savadlı, bilikli, geniş dünyagörüşlü, nümunəvi əxlaqa malik insanlar yetişir. Bu insanlar isə cəmiyyəti daha da inkişaf etdirir. Bu gün Vətənimizə sədaqətlə xidmət edən hər bir müəllim öz əməyi ilə öyünə, sevinə bilər, ona görə ki, hazırda dövlətimizin müstəqilliyinin möhkəmlənməsində fəal iştirak edən insanlar məhz onların əməyinin, zəhmətinin yetirmələridir. ***"Mən dünyada müəllimdən şərəfli ad tanımıram"***, – deyən ümummilli liderimiz Heydər Əliyev müəllim adını, ləyaqətini həmişə uca tutmuşdur. Nazirə müəllim söhbətinə belə davam edir: – Dahi öndərimizin bütün azərbaycanlılar üçün örnək olan həyat və siyasi fəaliyyəti gələcəyimizin etibar ediləcəyi bugünkü şagirdlərə öyrədilməsi üçün məktəbimizdə Tədbirlər Planı hazırlanıb. Plana əsasən həyata keçirilən tədbirlər öz bəhrəsini hər keçən gün daha faydalı şəkildə verir. Mütəmadi olaraq inşa, şeir, rəsm müsabiqələri təşkil olunur. Məktəbdə şagirdlərin fiziki hazırlığına da ciddi diqqət yetirilir. Bunun üçün dərsdənkənar məşğələləri xüsusi qeyd etmək lazımdır. Məktəbin şagirdləri rayon və muxtar respublika birinciliklərində uğurlu nəticələr əldə edirlər. Təbii ki, qazanılan uğurlarda müəllimlərimiz başlıca simadırlar. Ona görə də dövlətimiz tərəfindən müəllim əməyinə yüksək qiymət verilir, diaqnostik qiymətləndirmə aparılır, müəllimlər fəxri adlarla təltif olunurlar. Qürurla deyə bilərəm ki, məktəbimizin müəllimlərindən 1-i Azərbaycan Respublikasının, 4-ü isə Naxçıvan Muxtar Respublikasının "Əməkdar müəllimi" fəxri adlarına layiq görülüb.

Hər bir gəncin formalaşmasında, gələcəkdə layiqli bir şəxsiyyət kimi yetişməsində ailənin rolu böyük olduğu kimi, sosial həyatda da məktəbin fəaliyyəti inkaredilməzdir. Bu gün artıq diyarımızda aparılan məqsədyönlü kadr siyasəti nəticəsində peşəkar müəllim qüvvəsi formalaşıb. Onların əməyi sayəsində öz məsuliyyətini dərk edən şagirdlər 11 illik məktəb həyatının sonunda cəmiyyətdə özlərinə layiqli yer tutur, təmsil etdikləri xalqın nümunəvi vətəndaşına çevrilirlər. Bu fikirlərimizin davamını növbəti müsahibimiz, IV ixtisas qrupu üzrə 633 bal toplayan ***Aysun Bayramova*** belə ifadə etdi: – Düzgün əqidə, sağlam rəqabət, elmə, təhsilə olan maraq heç zaman insanı yarı yolda buraxmaz. Müqəddəs kitabımız "Qurani-Kərim"də buyurulub ki, insan yaradılmışların ən alisi, ən dərrakəlisi olmaqla bərabər, həm də böyük irfan sahibidir, o istəsə hər bir işin öhdəsindən layiqincə gələr. Məni bu nəticəni əldə etməyə həvəsləndirən, stimul verən yeganə amil idi qarşıma qoyduğum məqsəd, yəni həkim olmaq arzusu. 9-cu sinifdən etibarən ixtisas qrupuma aid olan fənlərə daha məsuliyyətlə çalışmağa başlamışdım. Dərslərimi sistemli şəkildə yerinə yetirir, boş zamanlarımda isə mütaliə edirdim. Çünki mütaliə mədəniyyəti həm insanın zamanını düzgün dəyərləndirməsində, həm də onun dünyagörüşünün formalaşmasında mühüm rol oynayır. Bir şeyi də deyim ki, mən ali təhsil üçün həmyaşıdlarımın əksəriyyətindən fərqli olaraq hazırlıq məşğələlərində olmamışam, öz savadıma əmin olaraq çalışmışam və yüksək nəticə qazanmışam. İnanıram ki, tələbəlik illərimdə də bu uğurlarımın davamı olacaq.

*Böyük maarifçi, yazıçı-publisist, ədəbiyyatımızın ölməz siması Məhəmməd Tağı Sidqi yazır ki, "Məktəb cəhalət dərdinin dərmanı, mərifət bağının xiyabanıdır". Yüz illər əvvəl deyilən bu dəyərli fikir bu günümüzdə də istər yetişməkdə olan gənc nəslin, istərsə də onları formalaşdıran hər bir müəllimin peşə amalı, yaradıcılıq dəyəri hesab olunmalıdır. Bu gün artıq yurdumuzun gələcək davamçıları dövlətimizə sədaqətlə xidmət edən ziyalı müəllimlərimizin sayəsində hər keçən gün yeni uğurlara imza atır, Vətənimizi layiqincə təmsil edirlər. Bu şərəfli yolda bəhs etdiyimiz Şərur şəhərindəki 2 nömrəli məktəbin kollektivinə gələcək fəaliyyətlərində uğurlar arzulayırıq.*

✍ **Məcid RƏŞADƏTOĞLU**

## *"Kitabı sevin"* adlı kitab sərgisi təşkil edilib



Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanası məktəblilərin yay tətili günlərinin səmərəli təşkili məqsədilə hər il ənənəvi olaraq Naxçıvan şəhərindəki park və meydanlarda, həmçinin əhalinin sıx yaşadığı məhəllələrdə kitab sərgiləri və kitab müzakirələri təşkil edir. Kitabxanaçılar bu müddətdə məhdud fiziki imkanlı uşaqların da ailələrində tez-tez olur, uşaqlara maraqlı nağıllar, hekayə və şeirlər oxuyur, onlara kitab və jurnallar hədiyyə edirlər. Belə tədbirlər 2022-ci ilin iyul ayından başlayaraq davam etməkdədir. Bu günədək kitabxanaçılar şəhərin Heydər Əliyev prospektində, Qoçüstü, Çənlibel, Babək məhəllələrində və "İstiqlal" küçəsində "Kitabı sevin" adlı səyyar kitab sərgi və müzakirələri keçirir. Sərgidə "Oxunması zəruri olan kitabların Siyahısı"na daxil olan əsərlər, həmçinin Azərbaycan və dünya xalq nağıl və dastanları, yeni çapdan çıxmış roman və povestlər, xüsusilə uşaq ədəbiyyatına dair 500-dən çox kitab nümayiş etdirilir. Tədbir çərçivəsində 18 yeni kitabın müzakirəsi də təşkil olunub.

Sərgilərdə, ümumilikdə, 1000 nəfərdən artıq məktəbli və məhəllə sakini iştirak edib.

Kitabxananın tərtib etdiyi Tədbirlər Planına uyğun olaraq sərgilərin təşkili sentyabr ayının 15-dək davam etdiriləcəkdir.

**Xəbərlər şöbəsi**

*Uzun illər başqa sahələrdə çalışsa da, Naxçıvan ədəbi mühitində öz şeirləri ilə tanınan bir müəllif də var: Alməmməd Eldaroğlu. O, Şərur rayonunun Dəmirçi kəndində dünyaya göz açıb. Ədəbiyyat, şeir-sənət vurğunu olması Alməmməd Eldaroğlunun uşaqlığından şair olacağına inam yaradıb. Hazırda şair bir neçə kitabın müəllifidir. Onun "Vətən əmanətdir" (2011), "Mənim gördüyüm dünya" (2013), "Niyə belədir dünya?" (2021), "Dağlar qartalı" (2022) kitablarında oxunaqlı şeir və poemaları toplanmışdır. Şairin yeni kitablarından biri də "Vətən harayı" adlanır.*




Yeni nəşrlər

# Vətənə məhəbbətin poetik, nəğməkar təsviri

Bir neçə kitabı ilə oxucularına özünü tanıtmağa müvəffəq olan müəllifin şeirlərində, həqiqi mənada, hər şeydən əvvəl, yaradıcılıq səmimiyyəti oxucunu özünə valeh edir. Alməmməd Eldaroğlu qələmində söz ərşə çəkilmiş tapılmaz tikə kimi zülmlə deyil, lap dilinin ucundan tökülən kəlmələr kimi yer alır. Onun şeiriyyəti axıcılığı, diləyatımlılığı, ahəngdarlığı ilə diqqəti cəlb edir. Vətən, el məhəbbəti, el-oba gözəlliklərinin tərənnümü Alməmməd Eldaroğlu yaradıcılığı üçün daha səciyyəvidir. Müəllifin "Vətən harayı" kitabı da maraqlı, sevilən şeir nümunələri ilə zəngindir. Kitabın ilk səhifələri Azərbaycanın 2020-ci ilin noyabr ayında işğalçı və faşist Ermənistanın üzərində cəmi 44 günə qazandığı Böyük Qələbə sevincindən yaranan vətəndaşlıq duyğularının coşqulu örnəkləri ilə süslənib. "Azərbaycan", "Baş Komandan, Milli Ordu", "Günəşdən bir zərrə", "Haqq yolu", "Vətən oğlu" kimi şeirlərində Azərbaycan xalqının qələbə sevinci, zəfər məğrurluğu, milli qeyrət və qürur duyğuları yüksək poetik pafosla əksini tapmışdır:

*Qartalların vurur halay,*
*Dağda-daşda bir samuray.*
*Düşmən salıb imdad, haray,*
*Baş Komandan, Milli Ordu!*

*Bayraq uca, uğur zəfər,*
*Qələbədi yürüş, səfər.*
*O, müzəffər, bu, müzəffər,*
*Baş Komandan, Milli Ordu.*

Müəllif Azərbaycana uğurla rəhbərlik edən, hər sahədə böyük qələbələr qazanan, 44 günlük Vətən müharibəsində özləri haqqında məğlubedilməzlik mifi uyduran Ermənistana qarşı Böyük Zəfər əldə edən müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə və hünəri, döyüş məharəti, bacarığı ilə tarixdə böyük ad qazanmış Müzəffər Milli Ordumuza zəfər nəğmələri qoşur, qürurlu vətəndaş minnətdarlığını ifadə edir. Şairin mənsub olduğu xalqın milli xarakter duyğularından irəli gələrək qabartdığı, nəğmə qoşduğu sülhə çağırış nidaları "Günəşdən bir zərrə" şeirində çox aydın əksini tapmışdır. Şair el-obasını, müzəffər ölkəsini, Böyük Qələbəyə hər cür töhfələr vermiş doğma torpağı Naxçıvanı sülhün beşiyi, vətəni hesab edərək hər ölkəyə sülh payı verməsinin arzusu ilə yaşayır:

*Günəşdən bir zərrə nur ələnəydi,*
*Əlimi yuyaydım üzümə çəkib.*
*O nurun şux ətri gülə dönəydi,*
*Aya göndərəydim buluda əkib.*

*Qarabağ dünyaya çağırış*
*meydanı,*
*Xarıbülbül sülhün simvolu olsun.*
*Dünyanın sülhsevər xalqları kimi,*
*Bütün Yer kürəsi sülhə qoşulsun.*

Şeirdə Azərbaycan xalqının tolerant duyğuları, multikultural dəyərləri, sülhə, humanizmə verdiyi əhəmiyyət və bu yolda apardığı şərəfli mübarizə humanizmin təntənəsi kimi poetik ifadə tapmışdır.

Alməmməd Eldaroğlunun ana dilinə olan məhəbbəti, onun ecazkar qüdrəti və sehrinə olan məhəbbət və sədaqəti, ana dilinin qorunması, yad sözlərdən təmizlənməsi çağırışları "Dilin nəfsi" şeirində başlıca yer almışdır. Özünün səmimiyyəti, qəlbəyatımlılığı ilə fərqlənən bu şeirdə şairin bir vətəndaş kimi ana dili təəssübkeşliyi özünü qabarıq təcəssüm etdirmişdir. Məlumdur ki, ictimai bir hadisə olan dil hər millətin milli taleyi, hətta aqibətidir. Bizim də milli-ictimai taleyimiz kimi ana dilimizə qayğılı baxış bu şeirdə hakim olmuşdur.

Ümumiyyətlə, özünün oxunaqlılığı, ürəyəyatımlılığı ilə seçilən "Qonur adam", "Bu şəhər bizim deyil", "Arazda batan Günəş", "Dərdin paslanmış nəmi", "Dəli könlüm", "Bu axşam, Sarıdaş, səndə qalacam", "Dərdli küçə" və başqa şeirləri poetik ahəngdarlığı ilə yaddaqalandır. Bu şeirlər insanın hiss və duyğularını dindirir, könlü ilə söhbətləşir, dərd, kədər, sevinc, qürur və nostaljisi ilə oxucuya doğmalaşır. Xüsusilə "Bu axşam, Sarıdaş, səndə qalacam" şeiri daşa, torpağa qəribə bir bağlılıq duyğuları yaradır, insanı ötən şənşaqraq uşaqlıq illərinə aparır. Şairin təsvir etdiyi Sarıdaş munis xatirələri ilə Vətənləşir və Vətənə məhəbbəti daş yaddaşına çevrilir. Sanki Vətənə yadırğamış, qəribsəmiş, nisgilinə çevrilmiş bir eloğlunun həsrət və nisgil dolu duyğuları, nostalji hissləri burada öz əksini tapmışdır:

*Dedim, qonağınam, vallah gələcəm,*
*Dərib güllərindən çələng hörəcəm.*
*Sirli daşlarından bir-bir öpəcəm,*
*Sarılıb boynuna ağrın alacam,*
*Bu axşam, Sarıdaş, səndə qalacam.*

"Bu şəhər bizim deyil" şeirində də olduqca həzin bir nostalji, xatirələrlə zəngin bir yaddaş boy tutaraq adamın gözlərinə baxır, öz təəssüratları ilə qəlbə, ruha yayılır. Ümumiyyətlə, Alməmməd Eldaroğlu yaradıcılığında insanı bütün xarakterik cizgiləri ilə – istər bir vətəndaş, istər bir övlad, istər bir dost və sair kimi çox məharətlə təsvir edir. Şair "Qonur adam" şeirində daha böyük şairanəlik və səmimiyyət əks etdirir.

Şairin şeiriyyəti sözün obrazlı, məcazlı, poetik ifadəsi ilə pərvazlıdır. Olduqca maraqlı və orijinal bədii təsvir və ifadə vasitələri işlədən müəllif bədii mətləbini çox uğurla əks etdirməyə müvəffəq ola bilmişdir. Nəinki şeiriyyətində, şeirlərinin dilində, hətta sərlövhələrdə belə məcazlı ifadələr diqqəti cəlb edir. Məsələn, "Günəşdən bir zərrə" şeirindəki bədii təsvir və ifadə vasitələrinin mürəkkəbliyi, orijinallığı şairin sənətkarlıq məharətini və yaradıcılıq təbini uğurla nümayiş etdirir.

Şair şeirlərində xalq dilindən gələn, Naxçıvanda yerli əhalinin dilində tez-tez işlənən məhəlli sözlərdən, deyimlərdən də istifadə edərək şeirlərini daha da şirinləşdirmiş və oxunaqlı etmiş, ana dilinin imkanlarından məharətlə faydalanmağı bacaran şair bütün şeir nümunələrində təsirli, gözəl örnəklər ortaya qoymağa müvəffəq ola bilmişdir.

**Ramiz QASIMOV**
*AMEA Naxçıvan Bölməsinin əməkdaşı, dosent*

## Milli valyutamızın 30 yaşı tamam olur



Azərbaycanın milli valyutası – manatın dövriyyəyə buraxılmasından 30 il ötür. Dövlətin müstəqilliyinin əsas göstəricilərindən biri öz mərkəzi bankının və pul vahidinin olmasıdır. Bu səbəbdən də müstəqillik əldə etdikdən dərhal sonra 1992-ci il 11 fevral tarixində "Azərbaycan Respublikası Milli Bankının yaradılması haqqında" Fərman verilib. Fərmanın qüvvəyə mindiyi gün, yəni 12 fevral tarixi ölkəmizdə ilk vaxtlar Milli Bank olaraq adlandırılan Mərkəzi Bankın yaradılması günü kimi qeyd edilir. 1992-ci ilin 15 avqustunda isə artıq müstəqil Azərbaycanın ilk milli valyutası olan manat dövriyyəyə buraxılıb. İlk milli pullar Fransa Mərkəzi Bankında hazırlanıb. 1992-ci ilin avqust ayından 1994-cü ilin yanvar ayına qədər Azərbaycan ərazisində 1 manat 10 rubla (rus pulu) bərabər olub və dövriyyədə hər iki valyutadan istifadə edilib. Ümummilli liderimiz Heydər Əliyevin 1993-cü il 11 dekabr tarixli "Milli valyutanın respublika ərazisində yeganə ödəniş vasitəsi elan olunması haqqında" Fərmanından sonra Azərbaycan rubl zonasından çıxıb. Bununla da, Mərkəzi Bank müstəqil pul və məzənnə siyasəti həyata keçirməyə başlayıb. 1994-cü il 1 yanvarda manatın ölkə ərazisində yeganə ödəniş vasitəsi olması haqqında Qərar qəbul edilib. 1992-ci ildən 2001-ci ilədək istifadə etdiyimiz əskinasların dizaynı xalçaçı-rəssam Eldar Mikayılzadəyə məxsus olub. Manatın eskizlərinin hazırlanmasında xalça motivlərindən, dahi şəxsiyyətlərin portretlərindən istifadə edilib.

Prezident cənab İlham Əliyev tərəfindən 2005-ci il 7 fevral tarixli "Azərbaycan Respublikasında pul nişanlarının nominal dəyərinin və qiymətlər miqyasının dəyişdirilməsi haqqında" imzalanmış Fərmana uyğun olaraq 2006-cı il yanvarın 1-dən etibarən Azərbaycan ərazisində yeni manatdan istifadə edilməyə başlanılıb. Yeni manata keçid zamanı 1 yeni manat 5000 köhnə manata bərabər tutulub. Yeni valyutanın dizaynı Avro əskinaslarının dizaynının da müəllifi olan Robert Kalinaya məxsusdur. Azərbaycanın yeni nəsil pullarının dizaynları vahid konsepsiya əsasında dünyada ən yeni cərəyanlar və "vahid ailə" prinsipi nəzərə alınaraq hazırlanıb, modern qrafik üsul əsas götürülüb, Azərbaycanın müstəqilliyi və inkişafı təzahür etdirilib. Dizayn mövzusu isə "Müstəqil Azərbaycan" müəyyən edilib. Hazırda istifadə etdiyimiz 1 manat və 1 qəpik "Mədəniyyət və incəsənət", 5 manat və 3 qəpik "Yazı və ədəbiyyat", 10 manat və 5 qəpik "Tarix", 20 manat və 10 qəpik "Qarabağ", 50 manat və 20 qəpik "Təhsil və gələcək", 100 manat və 50 qəpik "İqtisadiyyat və inkişaf", 200 manat "Modern arxitektura" mövzusu ilə bağlıdır. Şanlı Zəfər tariximizi əbədiləşdirmək üçün isə Azərbaycan Mərkəzi Bankı tərəfindən 4 noyabr 2021-ci il tarixdə 500 manat nominallı "Zəfər" xatirə banknotu tədavülə buraxılıb.

Yeni Azərbaycan manatının mühafizə sistemi xüsusi "mühafizə fəlsəfəsinə" uyğun olaraq İsveçrə Milli Bankı ilə əməkdaşlıq nəticəsində hazırlanıb. Tətbiq edilən mühafizə sistemində əsas məqsəd əhali tərəfindən əskinasların həqiqiliyinin xüsusi bilik və səriştə olmadan müəyyən edilməsini təmin etməkdir.

İllər keçməsinə baxmayaraq, milli pul nişanlarımız estetik görünüşünə, konseptual mövzusuna, müasirliyinə görə öz aktuallığını qoruyub saxlayır. Azərbaycan Mərkəzi Bankı nağd pul sferasında müasir çağırışları nəzərə alaraq pul nişanlarımızın mühafizə sistemlərinin müasirləşməsini daim diqqət mərkəzində saxlayır. Bunun nəticəsidir ki, 2022-ci ilin fevral ayında dünyanın aparıcı mərkəzi banklarının iştirakı ilə ABŞ-ın Vaşinqton şəhərində keçirilən beynəlxalq konfransda Azərbaycanın yenilənmiş 50 manatlıq pul nişanı mövzusuna, dizaynına və təhlükəsizlik sistemlərinə görə "Dünyanın ən yaxşı yeni banknotu" tituluna layiq görülərək qalib seçilmişdir.

Bu gün Azərbaycanda dövriyyədə 6 növ metal pul və 8 əsginas mövcuddur. Manatın dövriyyəyə buraxılması və dövriyyədən çıxarılması hüququ yalnız Mərkəzi Banka məxsusdur.

**Aytac AXUNDOVA**
*Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin əməkdaşı*

## Dünyaya örnək olacaq yol və yol mədəniyyəti...



*Hər bir xalqın mədəniyyəti yoldan başlayır. Yol mədəniyyət, həyat, iqtisadiyyatdır. Yolların abad, səliqəli, rahat, geniş olması təkcə nəqliyyat daşımaları üçün mühüm əhəmiyyət kəsb etmir, həmçinin ölkənin qüdrətindən, iqtisadi gücündən xəbər verir.*

Azərbaycan Avropa və Asiyanı birləşdirən nəqliyyat marşrutlarının kəsişdiyi əlverişli strateji mövqedə yerləşir. Bu amil ölkəmizin tranzit əhəmiyyətini xeyli artırır. Respublikada görülən yol inşaat işlərinin miqyasının ölçüyəgəlməz dərəcədə geniş olmasında bu faktorun da yeri var. Son illər aparılan quruculuq işlərinin bir hissəsi olaraq bölgələrdə kənd və qəsəbə yolları təmir edilir, yeni istiqamətdə nəqliyyat qovşaqları yaradılır.

Nəqliyyat infrastrukturunun inkişafı dövlətimizin daim diqqət mərkəzindədir. Artıq bir neçə ildir ki, ölkəmizin avtomobil yolları şəbəkəsinin saxlanılması, təmiri, yenidən qurulması və tikintisi layihələri hazırlanıb. O da faktdır ki, yol tikintisinin keyfiyyətli görülməsi işlərində inşaat və yol işləri texnikasının tətbiqindən çox şey asılıdır. Bu istiqamətdə işlər Naxçıvan Muxtar Respublikasında da əhəmiyyətli dərəcədə nəzərə çarpır.

Artıq dördüncü ilə keçir ki, Naxçıvan Dövlət Universitetində təhsil alıram. Bir jurnalist-tələbə kimi bu illər ərzində etdiyim müşahidələrə görə Naxçıvanın yolları heç ölkəmizin paytaxtı Bakı şəhərinin və regionda sayılıb-seçilən ölkələrin yollarından geri qalmır. Keyfiyyətlə aparılan yol inşaat işləri göz oxşayır. Hətta Naxçıvan Dövlət Universitetində təhsil alan əcnəbi tələbələrlə həmsöhbət olduğumuz zaman onların bəziləri öz ölkələrində bu qədər təmiz, rahat və abad yolların olmadığını etiraf edirlər. Onu da xatırlatmaq yerinə düşər ki, təkcə Naxçıvan şəhərinin deyil, muxtar respublikanın digər şəhərləri və rayon mərkəzlərinin də yol infrastrukturu göz oxşayır. Hətta ən ucqar dağ kəndlərinə belə çəkilən asfalt yollar ilin istənilən fəslində bura ilə əlaqəni davamlı olaraq saxlayır. Yəni qışın qarında, yazın leysanlarında, payızın yağmurlarında yollarda hərəkət intensiv olur.

Naxçıvan şəhərinin abad, rahat və təhlükəsiz, şüşətək hamar yollarından istifadə – yol mədəniyyəti isə ayrı bir mövzudur. Deyirlər ki, təkcə Naxçıvan şəhərində 100 minə qədər əhali yaşayır və hər gün 10 mindən artıq adam bu şəhərə daxil olur və çıxır. Təbii ki, son vaxtlar güclənən iqtisadiyyat insanların yaşayışına, maddi vəziyyətinə də müsbət təsir edib. Nəticədə, vətəndaşların şəxsi avtomobil almaq imkanı genişlənib. Bu da yollarda avtomobillərin sayını artırıb. Amma Naxçıvan şəhərinin rahat və yol hərəkəti qaydalarına ciddi riayət edilən yollarında bu nəqliyyat sıxlığı o qədər də hiss olunmur. Çünki qeyd etdiyimiz kimi, piyadalar və sürücülərin nizam-intizamına müvafiq qurumlar tərəfindən mütəmadi nəzarət edilir. Şəhərin rahat yollarında sürət həddinə, qaydalara uyğun riayət edilməsi artıq Naxçıvanda xüsusi sürücü mədəniyyəti formalaşdırıb. Bu isə təkcə yerli sakinlərin deyil, həmçinin şəhərə qonaq gələn əcnəbilərin də diqqətini çəkir. Bir sözlə, səliqəli, tıxacsız Naxçıvan yolları göz oxşayır. Ən əsası isə odur ki, Naxçıvanda sürücülərin və piyadaların yol hərəkəti qaydalarına ciddi riayət etməsi nəticəsində bu şəhərdə qəzalar, tıxaclar müşahidə edilmir. Piyada zolaqlarından keçən zaman sürücülərin insanlara yol verməsi, piyadaların isə yolu haradan gəldi deyil, nəzakətli şəkildə piyada keçidlərindən istifadə etməsi yol mədəniyyətinə ən gözəl nümunədir.

Məncə, artıq təkcə ölkəmizin yol və nəqliyyat problemi yaşayan iri şəhərləri deyil, hətta bəzi ölkələrin də bu mədəniyyəti məhz Naxçıvandan öyrənməsinə ehtiyacı var!

**Səbinə ƏLİYEVA**
*Naxçıvan Dövlət Universitetinin Jurnalistika fakültəsinin IV kurs tələbəsi*

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Ceyhun Məmmədov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1500. Sifariş № 710